# Sənətə məhəbbətlə

**Bizim təsəvvürümüzdə "müəllim" sözü nədənsə "müqəddəs əzab" anlayışı ilə birləşib, ülvi sakramental bir sintez yaradır ki, bu adi ifadənin arxasındakı qeyri-adiliyə fanatikcəsinə inanmaq olmur. "Müəllim" sözü peşə oriyentasiyası mənasından daha artıq bir çox anlayışların sərrast, aydın epitetinə çevrilərək, sözün estetikasına, daxili enerjisinə dramatizm verir: "müəllim" sözü, "müəllim zəhməti", "müəllim nüfuzu"!**

*"Müəllim" sözü*

bu anlayışların hamısında davamlı, işıqlı bir etiket kimi fikri tamamlayır, təsəvvürü aydınlaşdırır. Müəllim yolu qədər uzun keşməkeşli, dramatik və şərəfli yol tapmaq çətindir. Çünki hamının əlindən tutanı, yol göstərəni, hamının istiqamətgahı müəllimdir. Elə buna görə də bu söz məhək daşına dönərək hər cür saxta, ötəri nüfuz və şöhrət dumanlarını dağıdaraq zaman və cəmiyyətin fövqündə durur.

"Müəllim" sözünün bildirdiyi peşəyə nə qədər etinasızlıq olursa-olsun, bu sənətə nə qədər meşşan biganəliyi göstərilirsə göstərilsin, sözün arxasındakı konkret şəxsiyyətin nuru, işığı hər cür cəhalət zülmətinin dərinliyindən sızıb çıxır və nəticədə həmişə məğlubedilməz olur. Həqiqi müəllim öz praktikası, pedaqoji səriştəsi ilə bu yolun işığını artırır, "müəllim" sözünü xırdalanmaqdan, ucuzlaşmaqdan qoruyur, özü də bu şərəfli yolun alnıaçıq və şərəfli yolçusuna çevrilir, səmərəli əməyin bəhrələrindən doğan sonsuz qürur hisslərini keçirir.

Belə müəllimlərdən biri də Quba şəhər Texniki Təmayüllü Liseyin kimya müəllimi Nizami Müslümovdur. Onun tərcümeyi-halı olduqca sadədir. 1955-ci ildə Quba rayonunun Tülər kəndində anadan olmuş, ilk ibtidai təhsilini orada aldıqdan sonra - 1970-ci ildə Aşağı Tüləkəran kənd orta məktəbinin X sinfini bitirmişdir. 1970-1974-cü illərdə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin kimya fakültəsində təhsil almış və bu illərində özünün aydın, perspektivli həyat yollarını müəyyənləşdirmişdir.

Nəhayət Nizami müəllim elə orta təhsil aldığı məktəbə - Quba rayonunun Aşağı Tüləkəran kənd orta məktəbinə təyinat aldı. O, tezliklə şagird və müəllim kollektivinin sevimlisinə çevrildi.

Nizami müəllimi mən 1981-ci ildən Quba rayon Təhsil şöbəsində metodist işləyən vaxtdan tanıyırdım. Bundan başqa onun əhatə olunduğu müxtəlif adamlarla ünsiyyətdə olmağından bilirəm ki, ona dəfələrlə müxtəlif məsul vəzifələr təklif ediblər. Bu təkliflərin səbəbi onun işgüzarlığı, üzərinə düşən istər böyük, istərsə də kiçik vəzifəyə, tapşırığa eyni dərəcədə həssaslıq və işgüzarlıqla yanaşması, çalışdığı sahədə yeniliklərə can atması, el mənafeyini heç vaxt unutmaması olub. Amma Nizami müəllim pedaqoji fəaliyyətlə bağlı olmayan heç bir vəzifəyə, heç bir işə getməyə razılıq verməyib. Kimya müəllimi kimi işə başlayıb. Bir neçə il keçməmiş sorağı rayonun başqa məktəblərində də eşidilb. Onun təşkil etdiyi kimya dərnəyi Aşağı Tüləkəran kənd orta məktəbinin şagirdlərində dəqiq fənlərə maraq tərbiyəsi mərkəzinə çevrilib. Kimyadan zəif qiymətlər alan və sonradan bu dərnəyə yazılan şagirdlər qısa müddətdə uğurlar qazanmağa başlayıblar. Odur ki, məktəbin növbəti buraxılışlarında ali məktəblərə qəbulda kimya ixtisasını seçənlərin sayı artmağa başladı. Bacarıqlı müəllim ictimaiyyət arasında böyük hörmət və nüfuz sahibi kimi tanındı. Rayonun barmaqla göstərilən say-seçmə müəllimlərindən biri oldu.

Bütün bunlar onun məktəb direktorunun müavini, Quba Özəl Türk Liseyində ali məktəblərə hazırlıq kursunun rəhbəri, 2014-cü ildən isə Quba şəhər Texniki Təmayüllü Liseyində müəllim təyin edilməsinə səbəb oldu. Odur ki, Nizami müəllim öz imkanlarından istifadə etməyə, arzularını həyata keçirməyə daha yaxşı şərait əldə etdi.

*Nizami Müslümov*

kimyaya , bu fənnin tədrisi məsələlərinə dair onlarla mə-



qalənin, "Kimyadan məsələ və çalışmalar" və "Alimlər həqiqət axtarışında" kitablarının müəllifidir.

Uzun illər səmərəli pedaqoji fəaliyyətinə görə Nizami müllimin əməyi müxtəlif vaxtlarda layiqincə qiymətləndirilmiş, Təhsil Nazirliyinin, Quba RTŞ-nin onlarla fəxri fərmanlarına layiq görülmüşdür.

Nizami müəllim həm də xoşbəxt atadır, çünki o, övladları - Həmidi, Nəsibi, Səmiməni və Rəhiməni Kərpickəsən kişi kimi min bir zəhmətlə qazandığı halal çörəklə böyüdüb, həyatda onlara üzüağlıq bəxş edib. Hamısı da ailəlidir. "Dövlətdə dəvə, övladda nəvə" - deyiblər. Nizami müəllim həm də 8 gözəl-göyçək nəvənin xoşbəxt babasıdır.

Bəli, Nizami müəllim, əsl təhsil adamıdır. Ömrünün 20 yaşından sonrakı 45 ilini bu yolda qoyub. Amma heç vaxt dar çərçivəyə qapanmayıb, istər yaşadığı ərazidə, istərsə də respublikada təsadüfən yaranan siyasi prosesləri diqqətlə izləyir, gənclərimizin azərbaycançılıq, ruhunda, əsl vətənpərvər kimi tərbiyələnməsinə, maariflənməsinə çalışır, istər işlədiyi məktəbin, istərsə də rayonun ictimai işlərində fəal iştirak edir.

**... Qarşımızda Nizami müəllimin anadan olmasının 65, əmək fəaliyyətinin 45 illiyi ilə bağlı ürək sözləri yazılmış qalaq-qalaq kağızlar var. Yazıların müəllifləri - Quba şəhər TTL-in direktoru Gülzar Eyyubova, Türkiyədə Tibb Universitetini bitirərək, hazırda doktoranturada təhsilini davam etdirən Ataxan Nəcəfov, Yaponiyada Beynəlxalq Kimya Olimpiadasının gümüş medalçısı olmuş, hazırda Kanadanın paytaxtı Ottava şəhərində kimya mühəndisi işləyən Rəşad Yusifov, Mendeleyev adına beynəlxalq kimya olimpiadasında IV yer tutan, Azərbaycan Tibb Universitetində təhsil alaraq nevrocərrah işləyən Faiq İsmayılov, Türkiyənin Akademik Universitetinin kimya fakültəsinin məzunu Məmməd Mirzəliyev, Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsinin məzunu Pərvin Mirzəliyev, Qafqaz Universitetinin "mühəndislik" fakültəsinin məzunu Anar Babayev və başqalarının fikirləri Nizami müəllim barədə təsəvvür yaratmaq baxımından daha səciyyəvidir: alicənab insan, gözəl pedaqoq!**

**Şixəmməd Seyidməmmədov,**
**AYB-nin üzvü,**
**ADPU-nun Quba filialının "Təbiət fənləri və onun metodikası" kafedrasının baş müəllimi**